# AVROPA STATİSTİKASININ NORMALAR MƏCƏLLƏSİ

## *Milli Statistika Qurumları və Avropa İttifaqının Statistika Bürosu üçün*

**Avropa Statistika Sistemi Komitəsinin iclasında qəbul edilmişdir**

**16 noyabr 2017-ci il**

eurostat

AVROPA STATİSTİKA SİSTEMİ

# AVROPA STATİSTİKASININ NORMALAR MƏCƏLLƏSİ

***Milli Statistika Qurumları və Avropa İttifaqının Statistika Bürosu üçün***

**Avropa Statistika Sistemi Komitəsinin iclasında qəbul edilmişdir**

**16 noyabr 2017-ci il**

eurostat

AVROPA STATİSTİKA SİSTEMİ

# Ön söz

## Avropa Statistikasının Normalar Məcəlləsi

Avropa Statistikasının Normalar Məcəlləsi Avropa Statistika Sisteminin ümumi keyfiyyət çərçivəsinin əsas təməlidir. Bu özünü tənzimləyici bir vasitədir və institusional mühiti, statistik prosesləri və çıxış statistik məlumatları əhatə edən 16 prinsipə əsaslanır. Prinsiplərin hər biri üzrə ən yaxşı təcrübələrin və standartların göstəricilər toplusu Avropa Statistika Sistemi daxilində şəffaflığı artırmaqla Normalar Məcəlləsinin tətbiqinin təhlili üçün metodoloji əsası təmin edir və ona zəmanət verir.

Avropa Statistikasının işlənməsinə, istehsalına və yayımlanmasına məsul olan Avropa İttifaqının Statistika Bürosu (Avrostat), Milli Statistika Təşkilatları, rəsmi statistikanın digər istehsalçılarından ibarət olan statistika qurumları Normalar Məcəlləsinə riayət etməyə borcludurlar.

Müstəqil Məsləhət Şurası, Avropa Statistikasını İdarəetmə üzrə Məsləhət Şurası[1] (ESGAB, İdarə Heyəti) Avropa Statistika Sisteminin Normalar Məcəlləsinin tətbiq edilməsi ilə bağlı ümumi baxışı təmin edir. İdarə Heyəti hər il Avrostat tərəfindən Normalar Məcəlləsinin tətbiqini və bütövlükdə Avropa Statistika Sistemini təhlil edir. Normalar Məcəlləsinin tətbiqini asanlaşdırmaq üçün müvafiq tədbirlər görür, onun istifadəçiləri və məlumat təminatçıları ilə əlaqəsi, eləcə də mümkün yenilənmələri üzrə məsləhətlər verir.

Normalar Məcəlləsinin bu, 2017-ci il nəşri ikinci redaktə edilmiş (yenidən baxılmış) versiyasıdır, ilkin versiya 2005-ci ildə qəbul edilmişdir. Yeni statistik məlumatların əldə edilməsi, yeni texnologiyaların tətbiqi, hüquqi bazanın modernləşdirilməsi və Normalar Məcəlləsinin həyata keçirilməsinə dair nəzərdən keçirilmiş məlumatların nəticələri kimi, Avropa Statistika Sistemində rəsmi statistikanın işlənməsi, istehsalı və yayımlanmasında son dəyişikliklər və yenilikləri əks etdirmək məqsədi daşıyır.
Normalar Məcəlləsində istifadə olunan əsas terminləri izah edən onlayn lüğət mövcuddur http://ec.europa.eu/eurostat/web/quality/overview

[1]Avropa Statistikasını İdarəetmə üzrə Məsləhət Şurası: http://ec.europa.eu/eurostat/web/esgab/introduction



## Avropa Statistika Sisteminin Ümumi Keyfiyyət Strukturu

Avropa Statistika Sisteminin Ümumi Keyfiyyət Strukturu Avropa Statistikasının Normalar Məcəlləsi, Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturu və ümumi keyfiyyətin idarə edilməsi prinsiplərindən (məsələn, istifadəçilərlə davamlı qarşılıqlı əlaqə, tərəfdaşlıq, işçi heyətin məmnunluğu, davamlı inkişaf, inteqrasiya və uyğunlaşma) ibarətdir.

Bu, özünü tənzimləyən ümumi keyfiyyət strukturu Avropa İttifaqının fəaliyyətinə dair Müqavilədən götürülmüş Avropa statistikası haqqında 223/2009 saylı Əsasnaməyə əsasən Avropa Statistika Sisteminin geniş hüquqi strukturunu tamamlayır. Yüksək keyfiyyətli Avropa statistikası və xidmətləri çox sağlam hüquqi və keyfiyyətli çərçivədə təkmilləşdirilir, istehsal edilir və yayımlanır.

Bu broşüranın sonrakı səhifələrinə daxil edilmiş Avropa Statistika Sisteminin Keyfiyyət Bəyannaməsi Avropa Statistika Sistemində mövcud olan keyfiyyətin təmin edilməsi üzrə bilikləri, eləcə də onun bütün üzvlərin öz istifadəçilərinə dayanıqlı şəkildə fayda verməsi üçün yüksək keyfiyyətli Avropa statistikasını və xidmətlərini davamlı şəkildə təkmilləşdirmək, istehsal etmək və yaymaq öhdəliyini nümayiş etdirir.

AVROPA
STATİSTİKA
SİSTEMİ

## Avropa Statistika Sisteminin Keyfiyyət Bəyannaməsi

Avropa Statistika Sistemi Avrostatın, Avropa İttifaqına və Avropa Azad Ticarət Assosiasiyasına (AATA) üzv ölkələrin milli statistika qurumlarının əməkdaşlığıdır. Ümumi vəzifəmiz Avropa, milli və regional səviyyələrdə müstəqil, yüksək keyfiyyətli statistik məlumatların təmin edilməsi və bu məlumatların hər kəsə onların qərar qəbul etməsi, araşdırması və müzakirə etməsi üçün əlçatan edilməsidir.

Avropa statistikasının proqramı və prioritetləri Avropa qanunvericilik prosedurlarına uyğun olaraq ASS-nin üzvləri tərəfindən demokratik üsulla qəbul edilmiş yekun qərarlar əsasında müzakirə edilək razılaşdırılır.

Biz, möhkəm, beynəlxalq səviyyəli və özünü tənzimləyən keyfiyyət strukturu vasitəsilə ciddi hüquqi rejim[1] altında Avropa Statistikasının Normalar Məcəlləsinin[2] əsasını işləyirik. Bizim Normalar Məcəlləsinə uyğunluğumuz yenidən nəzərdən keçirmə mexanizmləri vasitəsilə və müəyyən edilmiş təkmilləşdirmə tədbirlərinin[3] dəqiq izlənilməsi ilə mütəmadi olaraq qiymətləndirilir.

[1] Avropa İttifaqının fəaliyyətinə dair Müqavilə: http://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=OJ:C:2016:202:FULL&from=EN və Avropa İttifaqının 2015/759 saylı qərarı ilə dəyişdirilən Avropa statistikası haqqında 223/2009 saylı Əsasnamə: http://eur-lex.europa.eu/legal-content/en/TXT/PDF/?uri=CELEX:02009R0223-20150608&from=EN

[2] Avropa Statistikasının Normalar Məcəlləsi: http://ec.europa.eu/eurostat/documents/3859598/5921861/KS-32-11-955-EN.PDF və ASS Keyfiyyət Təminatı Strukturu: http://ec.europa.eu/eurostat/documents/64157/4392716/ESS-QAF-V1-2final.pdf/bbf5970c-1adf-46c8-afc3-58ce177a0646

[3] ASS ekspert qiymətləndirilməsinin birinci və ikinci raundları: http://ec.europa.eu/eurostat/web/quality/first-round-of-peer-reviews & http://ec.europa.eu/eurostat/web/quality/peer-reviews



Biz, keyfiyyətə zəruri keyfiyyət dəlillərinin çatışmadığı, ani məlumatların artan tendensiyasının müşahidə olunduğu dünyada rəqabət üstünlüyümüzün əsası kimi baxırıq. Bizim işimiz peşəkar müstəqilliyə, bütün istifadəçilərimizlə qərəzsiz münasibətə, obyektivliyə, etibarlılığa, statistik məxfiliyə və xərclərin səmərəliliyinə uyğun olaraq tənzimlənir. Statistikamızın inkişafı, istehsalı və yayımlanması səmərəli metodologiyalara, ən yaxşı beynəlxalq standartlara və şəffaf şəkildə sənədləşdirilmiş müvafiq prosedurlara əsaslanır. Bizim keyfiyyət prinsiplərimiz bunlardır: aktuallıq, dəqiqlik, vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə, bərabər giriş və aydınlıq, eləcə də müqayisəlilik və uyğunluq (əlaqələndirmə).

Biz, respondentlərimizə düşən yükü minimuma endirməyə, məlumat təminatçıları ilə yaxşı əməkdaşlığı inkişaf etdirməyə və maraqlı tərəflərlə, o cümlədən elmi cəmiyyətlərlə sıx əməkdaşlıq etməyə davamlı olaraq səy göstəririk.

Biz, güclü və zəif tərəflərimizi, həmçinin ümumi keyfiyyət strukturunun davamlı inkişafında nəzərə aldığımız riskləri sistematik olaraq müəyyən edərək statistikanın təkmilləşməsinə səy göstəririk. Yeni göstəriciləri davamlı modernləşdirmək, yeniləmək və tərtib etməklə biz nəinki məhsul və xidmətlərimizin keyfiyyətini artırırıq, hətta istifadəçilərimizin ortaya çıxan ehtiyaclarını da öncədən təxmin etməyə təşəbbüs göstəririk.

**Milli Statistika İnstitutlarının rəhbərləri**
**və Avrostatın Baş direktoru**

## İnstitusional mühit

İnstitusional və təşkilati amillər Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanmasında statistik qurumların səmərəliliyinə və etibarlılığına əhəmiyyətli dərəcədə təsir göstərir. Peşəkar müstəqillik, koordinasiya və əməkdaşlıq, məlumatların toplanması və məlumatlara giriş üzrə səlahiyyət, ehtiyatların kifayətliliyi, keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, statistik məxfilik və məlumatların mühafizəsi, qərəzsizlik və obyektivlik müvafiq prinsiplərdir.

## 1-Cİ PRİNSİP

### Peşəkar müstəqillik

Statistika qurumlarının digər siyasi, nizamlayıcı və inzibati idarə və təşkilatlardan, həmçinin özəl sektorun operatorlarından peşəkar müstəqilliyi (asılı olmaması) Avropa statistikasının doğruluğunu təmin edir.

GÖSTƏRİCİ

1.1 Statistikanın işlənməsi, istehsalı və yayımlanmasında Milli Statistika İnstitutları və Avrostatın siyasi və digər kənar müdaxilələrdən müstəqilliyi qanunla təsbit edilmiş və digər statistika qurumları üçün də təminat verilmişdir.

1.2 Milli Statistika İnstitutlarının, Avrostatın və zəruri hallarda digər statistika qurumlarının rəhbərləri siyasi orqanların və inzibati dövlət təşkilatlarının rəhbərliyinə çıxmaq imkanı verən kifayət qədər yüksək iyerarxiya statusuna malikdirlər. Onlar ən yüksək peşəkar ixtisasa malik şəxslərdir.

1.3 Milli Statistika İnstitutlarının, Avrostatın və zəruri hallarda digər statistika qurumlarının rəhbərləri Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanmasının müstəqilliyinə cavabdehlik daşıyırlar.

1.4 Milli Statistika İnstitutlarının, Avrostatın və zəruri hallarda digər statistika qurumlarının rəhbərləri statistik metod, standart və prosedurların, o cümlədən statistik nəşrlərin məzmunu və buraxılış tarixinin müəyyənləşdirilməsinə dair qərarların qəbul edilməsi üçün fərdi məsuliyyət daşıyırlar.

1.5 Statistik işlər proqramları dərc edilir, onların yerinə yetirilməsinin gedişi dövri hesabatlarda işıqlandırılır.

1.6 Statistik buraxılışlar dəqiq çərçivələrlə məhdudlaşdırılır, siyasi kursun və ya həyata keçirilən siyasətin qiymətləndirilməsini əks etdirmir.



1.7 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika qurumları statistikaya dair məsələləri açıq şərh edir, o cümlədən münasib hesab etdikləri hallarda statistikadan yanlış istifadə edilməsini tənqid edirlər.

1.8 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika qurumlarının rəhbərlərinin seçilməsi və vəzifəyə təyin edilməsi prosedurlarında yeganə meyar şəffaflıq və onların peşəkar təcrübəsidir. Vəzifədən azad olunmaq üçün əsaslar qanunvericilikdə nəzərdə tutulmuşdur. Bu əsaslar peşəkar və ya elmi müstəqilliyi pozmamalıdır.

## PRİNSİP 1a

### Koordinasiya və əməkdaşlıq

Milli Statistika İnstitutları və Avrostat Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanması üçün bütün fəaliyyətlərin müvafiq olaraq həm milli statistika sistemi, həm də Avropa Statistika Sisteminin səviyyəsində koordinasiyasını təmin edir. Statistika qurumları Avropa statistikasının inkişafını, istehsalını və yayımlanmasını təmin etmək üçün Avropa Statistika Sisteminin tərəfdaşlığı çərçivəsində fəal əməkdaşlıq edirlər.

GÖSTƏRİCİ

1a.1 Milli Statistika İnstitutları Avropa statistikasını hazırlayan, istehsal edən və yayan digər rəsmi statistika istehsalçılarının statistik fəaliyyətlərini koordinasiya edir. Bu baxımdan Avrostat statistik məsələlərdə onlar üçün yeganə əlaqələndirici qurum kimi fəaliyyət göstərir. Həm milli, həm də Avropa səviyyəsində koordinasiya rolunun həyata keçirilməsi üçün qanunvericilik və dəqiq müəyyən edilmiş müvafiq prosedurlar mövcuddur.

1a.2 Milli statistika sistemi çərçivəsində Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanmasında keyfiyyətin təmin edilməsi üçün milli statistika institutlarının rəhbərləri tərəfindən milli qaydalar toplusu təsdiqlənir; zərurət yarandıqda onların həyata keçirilməsi izlənilir və nəzərdən keçirilir.

1a.3 Statistika qurumları müxtəlif səviyyələrdə bir-biri ilə, Avropa Statistika Sisteminin məsləhət orqanları ilə, habelə Avropa Mərkəzi Banklar Sisteminin üzvləri ilə, akademik təşkilatlar və digər beynəlxalq təşkilatlarla davamlı olaraq əməkdaşlıq edirlər.

# 2-Cİ PRİNSİP

## Məlumatların toplanması və məlumatlara giriş üzrə səlahiyyət

Statistika qurumları Avropa statistikasının ehtiyacları üçün çoxsaylı məlumat mənbələrindən məlumatların toplanması və məlumatlara giriş üzrə aydın qanuni səlahiyyətlərə malik olmalıdırlar. Qanun statistika qurumlarının tələblərinə uyğun olaraq inzibati təşkilatları, müəssisələri, ev təsərrüfatlarını, vətəndaşları Avropa statistikasının ehtiyacları üçün gərəkli olan öz məlumatlarına girişi təmin etməyə və ya məlumatları bildirməyə məcbur edə bilər.

GÖSTƏRİCİ

**2.1** Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanması üçün statistika qurumlarının çoxsaylı məlumat mənbələrindən məlumatların toplaması və məlumatlara giriş üzrə səlahiyyətləri qanunda nəzərdə tutulmuşdur.

**2.2** Qanunla statistika qurumlarına statistik ehtiyaclar üçün inzibati məlumat mənbələrinə girişə, onlardan dərhal və ödənişsiz istifadə etməyə icazə verilir. Statistik məqsədlər baxımından daha əlverişli vəziyyətə gətirilməsi üçün statistika qurumları əvvəlcədən inzibati sənədlərin layihələndirilməsi, hazırlanması və istifadəsinin dayandırılmasına cəlb edilirlər.

**2.3** Statistika qurumları normativ aktlar əsasında respondentlərin statistik sorğularda məcburi iştirakını tələb edə bilər.

**2.4** Statistik məqsədlər üçün fərdi məlumatlar kimi digər məlumatlara giriş statistik məxfiliyin və məlumatların mühafizəsinin təmin edilməsi ilə asanlaşdırılır.

# 3-CÜ PRİNSİP

## Ehtiyatların kifayətliliyi

Statistika qurumlarının sərəncamında olan ehtiyatlar Avropa statistikasının tələblərini ödəmək üçün kifayət etməlidir.

GÖSTƏRİCİ

**3.1** Statistik ehtiyacların ödənilməsi üçün kəmiyyət və keyfiyyət baxımından kifayət qədər insan, maliyyə və texniki ehtiyatlar mövcuddur.

**3.2** Statistikanın əhatəsi, təfsilatı və xərcləri onun ehtiyacları ilə uyğundur.

**3.3** Tələb edilən xərclərə uyğun olaraq, yeni statistik məlumatların istehsalının qiymətləndirilməsi qaydaları və sifarişlərin əsaslandırılması müəyyənləşdirilmişdir.

**3.4** Bütün statistika barəsində cari tələblərin qiymətləndirilməsi qaydası elə müəyyən edilmişdir ki, zəruri hallarda ehtiyatları azad etmək üçün müəyyən məlumatların istehsalını dayandırmaq və ya ixtisara salmaq mümkün olsun.



# 4-CÜ PRİNSİP

## Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik

Statistika qurumları keyfiyyət öhdəliyi daşıyır. Onlar prosesin və çıxış məhsulunun keyfiyyətini daima təkmilləşdirmək üçün sistemli və müntəzəm şəkildə güclü və zəif tərəfləri müəyyən edirlər.

GÖSTƏRİCİ

**4.1** Keyfiyyət sahəsində siyasət müəyyən edilir və bu ictimaiyyət üçün açıqdır. Keyfiyyətin idarə edilməsi üzrə təşkilati struktur və vasitələr mövcuddur.

**4.2** Çoxsaylı məlumat mənbələrindən məlumatların inteqrasiyası da daxil olmaqla, statistik proseslərin keyfiyyətinin planlaşdırılması, monitorinqi və təkmilləşdirilməsi üçün prosedurlar mövcuddur.

**4.3** Çıxış məhsulunun keyfiyyəti müntəzəm olaraq yoxlanılır, mümkün seçimlər baxımından qiymətləndirilir və Avropa statistikası üzrə keyfiyyət meyarına uyğun hesabat hazırlanır.

**4.4** Zərurət yarandıqda müstəqil ekspertin iştirakı ilə əsas çıxış statistik məlumatlara müntəzəm və hərtərəfli baxış keçirilir.

# 5-Cİ PRİNSİP

## Statistik məxfilik və məlumatların mühafizəsi

Məlumat təminatçılarının məxfiliyinə, onlardan alınan məlumatların konfidensiallığına, yalnız statistik məqsədlər üçün istifadə edilməsinə və məlumatların təhlükəsizliyinə tam zəmanət verilir.

GÖSTƏRİCİ

**5.1** Statistik məlumatların məxfiliyinə qanunla zəmanət verilir.

**5.2** Statistika qurumlarının işçiləri işə qəbul olunarkən məxfiliyin mühafizəsinə dair iltizam imzalayırlar.

**5.3** Statistik məlumatların məxfiliyinin qəsdən pozulmasına görə cərimələr tətbiq olunur.

**5.4** İşçi heyətinə statistik proseslər boyunca statistik məlumatların məxfiliyinin mühafizəsi üzrə təlimatlar və qaydalar izah edilir. Məxfilik siyasəti geniş ictimaiyyətə açıqlanır.

**5.5** Statistik məlumatların təhlükəsizliyi, bütövlüyü və onların ötürülməsi ən yaxşı təcrübələrə, beynəlxalq standartlara, habelə Avropa və milli qanunvericiliyə uyğun olaraq, lazımi tənzimləyici, inzibati, texniki və təşkilati vasitələrlə həyata keçirilir.

**5.6** Tədqiqat məqsədləri üçün statistik mikro-məlumatlara giriş əldə etmək üçün kənar istifadəçilər ciddi protokollara riayət edirlər.

## 6-CI PRİNSİP

### Qərəzsizlik və obyektivlik

Statistika qurumları tərəfindən Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanması elmi mülahizələrin müstəqilliyinə hörmət, obyektivlik, peşəkarlıq, şəffaflıq prinsipinə riayət etmək və bütün istifadəçilərə eyni münasibət ruhunda həyata keçirilir.

GÖSTƏRİCİ

**6.1** Statistik məlumatların toplanması statistikanın tələbləri ilə şərtlənən obyektiv əsasda həyata keçirilir.

**6.2** Məlumat mənbələrinin və statistik üsulların seçilməsi, həmçinin statistik məlumatların yayımlanması haqqında qərarların qəbul edilməsi statistikanın tələbləri əsasında şərtləndirilir.

**6.3** Rəsmi statistik nəşrlərdə aşkar olunmuş səhvlər dərhal aradan qaldırılır və düzəlişlər dərc edilir.

**6.4** Statistika qurumlarının məlumat mənbələri, iş metodları və qaydaları barəsində məlumatlar ictimaiyyət üçün açıqdır.

**6.5** Statistik buraxılışların tarixi və vaxtı haqqında əvvəlcədən məlumat verilir.

**6.6** Metodologiyalarda əhəmiyyətli yenilənmələrin və ya dəyişikliklərin edilməsi əvvəlcədən edilən xəbərdarlıqdan sonra həyata keçirilir.

**6.7** Statistika qurumları statistik məlumatların tam və vaxtında verilməsini nəzərə alaraq statistik buraxılışların vaxtı və məzmunu barədə müstəqil qərar verir. Bütün istifadəçilər statistik buraxılışlara eyni vaxtda bərabər giriş imkanına malikdirlər. Hər hansı kənar istifadəçinin buraxılışdan öncə məlumatlara giriş imtiyazı məhduddur, bu məhdudiyyətin səbəbləri əsaslandırılır, onlara nəzarət olunur və ictimaiyyətə açıqlanır. Pozuntu hallarında qərəzsizliyə zəmanət vermək məqsədilə buraxılışdan əvvəl məlumatlara giriş şərtləri yenidən nəzərdən keçirilir.

**6.8** Statistik buraxılışlarda və mətbuat konfranslarında açıqlanan məlumatlar obyektiv və qərəzsiz xarakter daşıyır.



## Statistik proseslər

Avropa statistikasının işlənməsi, istehsalı və yayımlanması üçün statistika qurumları tərəfindən istifadə edilən statistik proseslərdə innovasiyaya nail olmaq məqsədilə Avropa və digər beynəlxalq standartlara, təlimatlara və yaxşı təcrübələrə daima riayət edilir. Statistik məlumatlara inam idarəetmənin və səmərəliliyin məntiqəuyğunluğu sayəsində artır. Uyğun prinsiplər statistik metodologiyaların əsaslılığı, statistik üsulların uyğunluğu, respondentlərə düşən yükün azaldılması və qənaətcillikdir.

## 7-Cİ PRİNSİP

### Statistik metodologiyaların əsaslılığı

Statistikanın keyfiyyəti statistik metodologiyaların əsaslılığı ilə təmin edilir. Bunun üçün müvafiq vasitələr, prosedurlar və təcrübə tələb olunur.

GÖSTƏRİCİ

**7.1** Avropa statistikasında istifadə edilən ümumi metodoloji yanaşmada innovasiyaya nail olmaq üçün Avropa və digər beynəlxalq standartlara, təlimatlara və qabaqcıl təcrübələrə riayət edilir.

**7.2** Statistika qurumunun bütün struktur bölmələrində standart anlayışların, təriflərin, təsnifatların və digər standartların ardıcıl tətbiqini təmin edən prosedurlar həyata keçirilir.

**7.3** Avropa statistikasında istifadə edilən reyestrlər və məcmu çərçivənin yüksək keyfiyyətinin təmin edilməsi üçün onlar müntəzəm olaraq qiymətləndirilir və zərurət yarandıqda düzəlişlər edilir.

**7.4** Milli təsnifat sistemləri və müvafiq Avropa sistemləri arasında tam uyğunluq mövcuddur.

**7.5** Müvafiq sahə üzrə ali təhsilli məzunlar işə götürülür.

**7.6** Statistika qurumları öz işçi heyəti üçün davamlı peşə təlimi siyasətini həyata keçirir.

**7.7** Statistika qurumları metodologiyanı, tətbiq edilən metodların səmərəliliyini artırmaq və mümkün ola bilən ən yaxşı alətləri təşviq etmək üçün elmi cəmiyyətlərlə əməkdaşlığını qoruyur və inkişaf etdirir.

## 8-Cİ PRİNSİP

### Statistik üsulların uyğunluğu

Məlumatın toplanmasından onun təsdiq edilməsinə qədər tətbiq olunan müvafiq statistik prosedurlar keyfiyyətli statistikanın əsasını təşkil edir.

GÖSTƏRİCİ

8.1 Avropa statistikasının inzibati və sair məlumatlara əsaslandığı hallarda qeyri-statistik məqsədlər üçün istifadə edilən tərif və anlayışlar statistikada istifadə olunan tərif və anlayışlara əhəmiyyətli dərəcədə yaxınlaşır.

8.2 Statistik müşahidələr aparılarkən sorğu anketləri məlumatların toplanmasından əvvəl sistemli şəkildə sınaqdan keçirilir.

8.3 Statistik proseslərin müntəzəm monitorinqi aparılır və lazım olduqda yenidən baxılır.

8.4 Statistik proseslərlə əlaqəli metaməlumatlar statistik proseslər boyunca idarə olunur və müvafiq olaraq yayımlanır.

8.5 Məlumatların yenidən baxılması standart və şəffaf prosedurlara uyğun həyata keçirilir.

8.6 İnzibati və digər məlumat sahibləri ilə bu məlumatların statistik məqsədlər üçün istifadəsi ilə bağlı qarşılıqlı öhdəliyi nəzərdə tutan razılıq əldə edilir.

8.7 Statistika qurumları məlumatların keyfiyyətinin təmin edilməsi məsələlərində inzibati və digər məlumat sahibləri ilə əməkdaşlıq edirlər.

## 9-CU PRİNSİP

### Respondentlərə düşən yükün azaldılması

Hesabat yükü istifadəçilərin ehtiyacları ilə tarazlaşmalı və respondentlər üçün həddindən artıq olmamalıdır. Statistika qurumları hesabat yükünün monitorinqini həyata keçirir və vaxtaşırı bu yükün azaldılması üçün hədəflər müəyyən edir.

GÖSTƏRİCİ

9.1 Avropa statistikası sorğularının həcmi və təfsilatlılığı ən zəruri məlumatların əldə olunması ilə məhdudlaşdırılır.

9.2 Hesabat yükü mümkün qədər müşahidə məcmusu arasında bölüşdürülür və statistika qurumu tərəfindən monitorinqi aparılır.



9.3 Müəssisələrdən tələb olunan məlumatları onların mühasibat sənədlərindən hazır şəkildə əldə etmək olar. Bunun təmin edilməsini asanlaşdırmaq üçün elektron vasitələrdən imkan daxilində istifadə olunur.

9.4 Məlumatların toplanması zamanı təkrarçılığa yol verməmək üçün inzibati və digər mənbələrdən imkan daxilində istifadə olunur.

9.5 Məxfiliyə və məlumatların mühafizəsi tələblərinə əməl edildiyi halda, respondentlərə düşən yükün minimuma endirilməsi üçün məlumatların mübadiləsi və inteqrasiyası təşviq edilir.

9.6 Respondentlərə düşən yükün minimuma endirilməsi məqsədilə statistika qurumları məlumat mənbələri arasında əlaqəni təmin edən tədbirlər görürlər.

## 10-CU PRİNSİP

### Qənaətcillik

Ehtiyatlardan səmərəli istifadə edilməlidir.

GÖSTƏRİCİ

10.1 Statistika qurumlarının ehtiyatlardan istifadə edilməsinə daxili və kənar müstəqil vasitələrlə nəzarət edilir.

10.2 Statistik proseslər sahəsində informasiya və kommunikasiya texnologiyasının səmərəliliyinin potensialı daima optimallaşdırılır.

10.3 İnzibati və digər məlumat mənbələrinin statistik potensialını artırmaq və birbaşa müşahidələrə müraciəti məhdudlaşdırmaq üçün qabaqlayıcı tədbirlər görülür.

10.4 Statistika qurumları səmərəliliyi və effektivliyi artırmaq üçün standartlaşdırılmış həll yollarını tətbiq edir və onların yayılmasına imkan yaradır.

## Çıxış statistik məlumatlar

Mövcud statistik məlumatlar istifadəçilərin ehtiyaclarını ödəməlidir. Statistik məlumatlar Avropanın keyfiyyət standartlarına uyğun olmalı və Avropa təşkilatlarının, hökumətlərinin, tədqiqat institutlarının, biznes müəssisələrinin və ümumilikdə ictimaiyyətin ehtiyaclarına xidmət etməlidir. Buna görə də statistik məlumatların nə dərəcədə aktual, dəqiq və etibarlı, vaxtında, davamlı, əlaqəli olması, onların regionlar və ölkələr üzrə nə dərəcədə müqayisə edilə bilməsi və istifadəçilər tərəfindən nə dərəcədə asanlıqla əldə edilə bilməsi çıxış məlumatlarının keyfiyyəti ilə ölçülür.

## 11-Cİ PRİNSİP

### Aktuallıq

Avropanın statistika məlumatları istifadəçilərin tələbatlarını ödəməlidir.

| GÖSTƏRİCİ | |
|---|---|
| 11.1 | İstifadəçilərlə məsləhətləşmələrin aparılması, onların tələbatlarının ödənilməsi üçün cari statistik məlumatların aktuallığının və dəyərinin monitorinqinin həyata keçirilməsi, həmçinin onların gələcək tələbatlarının və prioritetlərinin müəyyən edilməsi üzrə prosedurlar mövcuddur. Statistik çıxış məlumatlarının davamlı inkişafını təmin etmək üçün innovativ tədbirləri həyata keçirilir. |
| 11.2 | Prioritet tələbatlar ödənilir və bu iş proqramında öz əksini tapır. |
| 11.3 | İstifadəçi məmnuniyyəti müntəzəm olaraq diqqətdə saxlanılır və sistemli şəkildə izlənilir. |

## 12-Cİ PRİNSİP

### Dəqiqlik və etibarlılıq

Avropa statistikası reallığı dəqiq və etibarlı şəkildə əks etdirməlidir.

| GÖSTƏRİCİ | |
|---|---|
| 12.1 | İlkin məlumatlar, inteqrasiya edilmiş məlumatlar, aralıq nəticələr və çıxış statistik məlumatlar mütəmadi olaraq qiymətləndirilir və əsaslandırılır. |
| 12.2 | Seçmə və qeyri-seçmə xətalar ölçülür və Avropa standartlarına uyğun olaraq sistemli şəkildə sənədləşdirilir. |
| 12.3 | Statistik proseslərin, ilkin və çıxış məlumatlarının təkmilləşdirilməsi məqsədilə düzəlişlər mütəmadi olaraq təhlil edilir. |



## 13-CÜ PRİNSİP

### Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Avropa statistikası vaxtında və gecikmə olmadan yayımlanmalıdır.

| GÖSTƏRİCİ | |
|---|---|
| 13.1 | Vaxtlı-vaxtında olma Avropa və digər beynəlxalq buraxılış standartlarına cavab verir. |
| 13.2 | Statistik buraxılışların gündəlik standart vaxtı ictimaiyyətə açıqlanır. |
| 13.3 | Statistik məlumatların yayımlanması dövriliyi istifadəçi tələbatını mümkün qədər nəzərə alır. |
| 13.4 | Məlumatların yayımlanması qrafikindən kənarlaşma əvvəlcədən elan və izah edilir, həmçinin yeni buraxılış vaxtı müəyyən edilir. |
| 13.5 | Ümumi dəqiqliyi və etibarlılığı məqbul olan faydalı ilkin nəticələrin yayımlanmasına yol verilir. |

## 14-CÜ PRİNSİP

### Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Avropa statistikası daxili və zaman baxımından uyğundur, həmçinin müxtəlif region və ölkələr arasında müqayisəlidir. Müxtəlif məlumat mənbələrindən olan əlaqəli məlumatları birləşdirmək və birgə istifadə etmək mümkündür.

| GÖSTƏRİCİ | |
|---|---|
| 14.1 | Statistika daxili əlaqəliliyə və uyğunluğa malikdir (məs., müşahidə olunan arifmetik və uçot oxşarlıqları). |
| 14.2 | Statistik məlumatlar münasib vaxt aralığı üzrə müqayisə olunandır. |
| 14.3 | Statistik məlumatlar müxtəlif müşahidə və məlumat mənbələrində istifadə olunan və əhatə dairəsi, təriflər, vahidlər və təsnifatları nəzərə alan ümumi standartlar əsasında tərtib edilir. |
| 14.4 | Müxtəlif məlumat mənbələrinə və müxtəlif dövrlərə aid statistik məlumatlar müqayisə edilir və uzlaşdırılır. |
| 14.5 | Avropa Statistika Sistemi çərçivəsində məlumatların beynəlxalq müqayisəliliyi Avropa Statistika Sistemi və digər statistika sistemləri arasında müntəzəm məlumat mübadiləsi əsasında təmin olunur. Metodoloji tədqiqatlar Avropa İttifaqına üzv dövlətlər və Avrostat arasında sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir. |

## 15-Cİ PRİNSİP

### Bərabər giriş və aydınlıq

Avropa statistikası aydın və başadüşülən formada təqdim edilir, uyğun və rahat üsullarla yayımlanır, ictimaiyyət üçün açıq olan müvafiq metaməlumat və təlimatlarla müşayiət olunur.

| GÖSTƏRİCİ | |
|---|---|
| 15.1 | Statistik məlumatlar və müvafiq metaməlumatlar düzgün şərhə və anlamlı müqayisələrə kömək edəcək formada təqdim olunur və arxivləşdirilir. |
| 15.2 | Yayım xidmətlərində müasir informasiya və kommunikasiya texnologiyalarından, metodlarından, platformalarından və ictimai informasiya standartlarından istifadə edilir. |
| 15.3 | Sifarişlər əsasında təhlillər texniki cəhətdən mümkün olduğu halda aparılır və ictimaiyyətə bu barədə məlumat verilir. |
| 15.4 | Tədqiqat məqsədləri üçün xüsusi qayda və protokollara riayət etməklə mikro məlumatlara girişə icazə verilir. |
| 15.5 | Çıxış məlumatları ilə əlaqəli metaməlumatlar Avropa standartlarına uyğun olaraq statistik qurumları tərəfindən idarə olunur və yayımlanır. |
| 15.6 | İstifadəçilərə statistik proseslərin metodologiyası, o cümlədən inzibati məlumatların və sair məlumatların istifadəsi və inteqrasiyası haqqında məlumat verilir. |
| 15.7 | Çıxış statistik məlumatların keyfiyyətinin Avropa statistikasının keyfiyyət meyarlarına uyğunluğu barədə istifadəçilərə məlumat verilir. |

Avropa Statistikasının Normalar Məcəlləsi haqqında əlavə məlumat:
http://ec.europa.eu/eurostat/web/quality/overview
E-poçt: ESTAT-QUALITY@ec.europa.eu